Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

## 14-cü istiqamət: Diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi

# Azərbaycanın haqq mübarizəsinə dəstək verən diaspor fəallarımız radikal-terrorçu erməni hədəfində...

**Yəqin ki, 1988-ci ildə və sonralar havadarlarının sayəsində Qafqazda İnternetin mövcud olmadığı dövrdə Azərbaycanı çox asanlıqla informasiya blokadasına alan ermənilərin ağlına gələ bilməzdi ki, işğalın 27-ci ilində xalqımız və diasporumuz bir yumruq halında birləşib, erməninin işğalçı, təcavüzkar və terrorçu maskasının yırtılmasına nail olacaq.**

Təbii ki, diasporumuzu qüvvətli edən Azərbaycan dövlətinin gücünün artması, Silahlı Qüvvələrimizin ölkənin ərazi bütövlüyünün bərpa olunması uğrunda uğurlu əməlliyyatlar keçirməsidir.

Eyni zamanda, Azərbaycan Prezidenti İlham Əliyevin uğurlu xarici siyasəti ilə yanaşı, ölkəmizin Birinci vitse-prezidenti Mehriban Əliyevanın Heydər Əliyev Fondunun vasitəsilə Azərbaycan həqiqətlərinin dünyada təbliğ olunması ilə bağlı ardıcıl fəaliyyəti, Avropanın qabaqcıl ölkələrində həyata keçirdiyi irimiqyaslı hümanitar layihələr diasporumuzun yeni müstəviyə çıxmasında müstəsna rol oynayıb.

### Ermənilərin Los Ancelesdəki vəhşiliyi

Ermənilər iyul ayında Tovuz təxribatına başlayanda dünyadakı Azərbaycan diasporu çox fəallıq nümayiş etdirdi. Müxtəlif ölkələrdə keçirilən aksiyalarda diaspor nümayəndələrimiz Azərbaycan həqiqətlərini dünyaya çatdırdılar. Bunu həzm edə bilməyən ermənilər dünyanın müxtəlif ölkələrində soydaşlarımıza qarşı vəhşiliklər törətdilər.

Gəlin, ermənilərin bu qısa müddət ərzində diasporumuza qarşı törətdiyi vəhşiliklərin bəziləri ilə tanış olaq. Los Ancelesdə yaşayan ermənilər iyulun 21-də Azərbaycanın Los Ancelesdəki Baş Konsulluğunun binasını əhatəyə alaraq ölkəmizə qarşı aqressiv və təxribatçı şüarlarla etiraz aksiyası keçirdilər. Los Ancelesdəki Baş Konsulluqdan verilən xəbərə görə, ancaq onların gözləmədikləri halda, Kaliforniyada yaşayan Azərbaycan icmasının üzvləri yüzlərlə ermənin qarşısına çıxaraq, onların bu təxribatına mane oldular. Azərbaycanlı icma üzvlərimiz Ermənistanın Azərbaycana qarşı təcavüzü və etnik təmizləmə siyasətini ifşa edən, işğal nəticəsində 1 milyona yaxın dinc azərbaycanlının öz doğma yurdlarından didərgin düşdüyünü əks etdirən ingilis dilində "Qarabağ Azərbaycandır!", "Ermənistanın təcavüzünə son qoyun!", "Xocalıya Ədalət", "Ermənistan COVID-19 pandemiyası dövründə Azərbaycana qarşı müharibəyə başlayır. Ar olsun!" və digər çoxsaylı şüarlar yazılan şəkilli plakatlar nümayiş etdirərək erməniləri susdurublar. Baş Konsulluğun, baş konsul da daxil olmaqla, bütün əməkdaşları nümayiş günü Baş Konsulluğun ofisində olaraq, daim icma üzvlərimizlə əlaqədə olublar.

### Sayca az olan soydaşlarımızın fədakarlığı…

Çoxlu sayda erməninin qarşısına çıxan azərbaycanlıların bu cəsarətindən hiddətlənən və məqsədlərinə nail ola bilməyən radikal erməni daşnakları həmyerlilərimizə qarşı zorakılıq və aqressiya nümayiş etdirməyə başlayıblar. Belə ki, onlar idarə etdikləri avtomobillərdən azərbaycanlılara təhqirlər yağdırıblar və onlardan bir neçəsi avtomobilini həmyerlilərimizin üzərinə sürməyə çalışıb. Vətəndaşlarımızın təhlükəsizliyini təmin etmək üçün Los Anceles Polis idarəsinin əməkdaşları onların ətrafına düzülüb.

Ermənilərin artan aqressiyasını görən Baş Konsulluq həmyerlilərimizin təhlükəsiz şəkildə oradan uzaqlaşdırılması məqsədilə dərhal avtobus şirkətlərilə əlaqə saxlayaraq, avtobus təşkil edilməsi prosesinə başlayıb. Ancaq 15 dəqiqə sonra Los Anceles polisi icma üzvlərimizə onların təhlükəsizliyini təmin edə bilməyəcəklərindən ehtiyat etdiklərini bildirərək, onları polisin müşayiəti ilə həmin yerdən uzaqlaşdırmağa başlayıb. Lakin təəssüf ki, daşnaklar həmyerlilərimizə bu anda hücum edərək, onlara müxtəlif bədən xəsarətləri yetiriblər. Nəticədə, biri qadın olmaqla, 7 həmyerlimiz müxtəlif xəsarətlər alıb. Bundan başqa, qadın həmyerlimizi erməni zorakılığından mühafizə etməyə çalışan polis əməkdaşı da başından xəsarət alıb. Xəsarət alan azərbaycanlılardan 4 nəfər xəstəxanaya müraciət edib. Baş konsul Nəsimi Ağayev xəstəxanaya gedərək, xəsarət alan həmyerlilərimizlə görüşüb, erməni cinayətkarların məsuliyyətə cəlb olunmaları üçün bütün lazımi tədbirlərin görüldüyünü bildirib.

Hadisədən dərhal sonra baş konsul Los Anceles Polis idarəsinin rəisi Michel Moore ilə əlaqə saxlayaraq, vəziyyətin ciddiliyi ilə bağlı ona məlumat verib və polisin erməni zorakılığının qarşısını ala bilməməsi ilə bağlı ciddi iradını bildirib. Qeyd olunub ki, öncədən Los Ancels Polisi icmamızın keçirdiyi bu əksnümayişdən xəbərdar olub və Baş Konsulluğa nümayişçilərin təhlükəsizliyinin tam təmin olunacağına zəmanət verib. Ancaq nümayiş günü Los Anceles Polisi tərəfindən adekvat tədbirlər görülmədiyindən bu hadisə baş verib. M.Moore baş konsuldan baş verən bu hadisəyə görə dəfələrlə üzr istəyərək, məsələnin ciddi araşdırılacağını, bununla bağlı xüsusi istintaq qrupu yaradacağını qeyd edib.

### Belçikada döyülən jurnalist...

Belçika Krallığının Brussel şəhərində Azərbaycanın Belçikadakı səfirliyinin önündə ermənilərə qarşı aksiyaya Niderlanddan, Almaniyadan soydaşlarımız qoşulmuşdu. Polis səfirliyin önündə gücləndirilmiş qaydada çalışsa da, buraya gələn ermənilər aksiyada iştirak edən azərbaycanlılara hücum edib. Qarşıdurma zamanı ermənilər REAL-ın Avropa bürosunun müxbiri Xatirə Sərdarqızına daşla ciddi xəsarət yetiriblər.

### Torontodakı ermənilər soyuq və odlu silaha əl atıblar...

Avqust ayının 1-dən 2-nə keçən gecə Kanadanın Toronto şəhərində yerli erməni icmasının üzvləri soyuq və odlu silahdan istifadə edərək orada yaşayan iki soydaşımıza qarşı növbəti çirkin təxribat törədiblər. Bir qrup ermənının hücumuna müqavimət göstərən iki soydaşımız müəyyən dərəcəli xəsarətlər alıb. Torontoda yaşayan Azərbaycan icmasının verdiyi məlumata əsasən, cinayət yerinə dərhal icma üzvləri və çox sayda polis nəfərləri gəlib. Polis zərər çəkmiş şəxslərdən izahatlar alıb və icma üzvlərimizin məlumatı əsasında təxribatı törədən milliyyətçə erməni şəxslərin yeri müəyyən edilib. Fakt üzrə yerli hüquqmühafizə orqanları tərəfindən axtarış işləri aparılıb və müvafiq tədbirlər həyata keçirilib.



Baş vermiş təxribatla bağlı icma üzvləri dərhal səfirliyi məlumatlandırıblar.

### Ermənilərin Kaliforniyadakı vandallığı

Erməni vandallarının azərbaycanlılara bəslədiyi nifrət sərhəd tanımır. Belə ki, dünyanın dörd bir yanına səpələnmiş erməni lobbisinin üzvləri, hətta okeanın o tayında, ABŞ-ın Kaliforniya ştatında yaşayan azərbaycanlılara qarşı vandalizm aktı törətməkdən çəkinmirlər. Onlar oktyabrın 20-də gecə Şimali Kaliforniya Azərbaycan Mədəniyyət Mərkəzinin binasının üzərinə nifrət dolu ifadələr, təhqir və söyüş yazmaqla erməni xislətinin dəyişməz olduğunu bir daha sübut ediblər. Milli zəmində azərbaycanlılara qarşı nifrət çağırışları edən ermənilərin cəzalandırılması üçün hadisə yerinə polis əməkdaşları çağırılıb. Hazırda hadisə ilə bağlı araşdırma aparılır.

Kaliforniya Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Həmid Azəri bu vandalizm aktını, eyni zamanda, Azərbaycanın cəbhə xəttindən uzaqda yerləşən Gəncə şəhərinə edilən raket hücumları nəticəsində 24 mülki vətəndaşın, o cümlədən qadın və günahsız uşaqların həlak olmasını, onlarca insanın yaralanmasını da hadisə yerinə dəvət olunmuş kütləvi informasiya vasitələrinin nümayəndələrinin diqqətinə çatdırıb.

### Ermənilər Polşada odlu silaha əl atdılar…

Polşanın Katovitse şəhərində azərbaycanlı gənclərin təşəbbüsü ilə Teatr binasının qarşısında erməni təcavüzünü və Gəncə terrorunu pisləyən icazəli aksiya keçirilib. Aksiya yekunlaşan anda ermənilər soydaşlarımıza qarşı təxribat törədib, onlara hücum çəkərək fiziki güc tətbiq ediblər. Yaranmış qarşıdurma zamanı ermənilər azərbaycanlılara pnevmatik silahlardan atəş açıblar.

Təxribatla bağlı polisə müraciət olunub, araşdırma aparılır. Məlumata görə, azərbaycanlılara qarşı təxribat törədən milliyyətçi ermənilərdən 3 nəfəri saxlanılıb. Göründüyü kimi, ermənilər dünyanın müxtəlif ölkələrində belə dinc aksiya keçirən soydaşlarımıza qarşı öz vandallıqlarından əl çəkmirlər.

### "Bizim yaşadığımız ölkədə hələlik bu yola əl atmırlar, bunu etsələr, onlar da qarşılarında güc görəcəklər"

Bu vəziyyətlə bağlı Ukraynadakı tanınmış azərbaycanlı diaspor veteranı Eldar Tağıyev fikirlərini "Bakı-Xəbər"lə bölüşüb. Onun sözlərinə görə, bu, diasporumuz üçün ciddi aktuallıq kəsb edən məsələdir: "Məsələ burasındadır ki, onları belə vəhşiliyə vadar edən başlıca səbəb bir millət olaraq aldıqları tərbiyədir. Bu səbəbdən də həmin millətin bizə bəslədiyi nifrət, kin sərhəd tanımır. Bizə qarşı müharibə də edirlər, soyqırım da törədirlər, hətta terrordan da əl çəkmirlər. Dinc aksiya iştirakçılarımıza edilən hücumlar da həmir tərbiyədən qaynaqlanır. Mənim yaşadığım Ukraynada hələlik belə halla rastlaşmamışıq, ancaq hər an gözləyə bilərik. Bir faktı da nəzərə alaq ki, indi əvvəlki vaxtlar deyil, burada azərbaycanlılar da çox güclənib. Onlara bütün cəhətlərdən cavab verməyə hazırıq. Onların xislətindən irəli gələn addımlardı. Harda çoxdularsa hücum edirlər, harda azdılarsa yaltaqlanmağa başlayırlar. Bizim yaşadığımız ölkədə hələlik bu yola əl atmırlar, bunu etsələr, onlar da qarşılarında güc görəcəklər. Bu istiqamətdə biz hər an təhlükə gözləməliyik.

Cəbhədə tam uduzandan sonra onlar bu ziddiyyətləri, qarşıdurmaları diaspor müstəvisinə keçirməyə çalışacaqlar. Buna görə də, bizim diasporumuz daha sıx birləşməlidir. Xüsusilə də diplomatik korpuslarımızın mühafizəsilə bağlı ciddi tədbirlər görülməlidir. Çünki tarixdən də bilirik ki, erməni terror təşkilatları çoxlu sayda türk diplomatlarını qətlə yetiriblər. Bu bir tarixi savaşdı, ermənilər nə qədər davam etməsini istəyəcəklərsə, biz də ora kimi davam edəcəyik. Onlardan qorxub çəkinmək lazım deyil".

Bütün sadalanan faktlar bir daha sübut edir ki, dünyada yaşayan ermənilər soydaşlarımıza qarşı sanki müharibə qanunları ilə davranırlar, hətta odlu silahdan belə istifadə edirlər. Bu, ermənilərin terrorçu mahiyyətini bir daha üzə çıxarır.

*Məhəmmədəli QƏRİBLİ*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**